# 2026-cı ilin I rübü üzrə nəticələr

2026-cı ilin I rübü üzrə istehlakçıların hüquqlarının qorunması, abonentlərin elektrik və istilik enerjisi, təbii qazla təchizatı və digər məsələlərlə bağlı Agentliyə bilavasitə və Energetika Nazirliyindən 3549 müraciət daxil olub.

**Bunlardan:**

Elektrik enerjisi təchizatı ilə bağlı 424-ü məlumat üçün olmaqla cəmi 3005 müraciət;

Təbii qaz təchizatı ilə bağlı 30-u məlumat üçün olmaqla cəmi 443 müraciət;

İstilik təchizatı ilə bağlı 5-i məlumat üçün olmaqla cəmi 70 müraciət;

5-i məlumat üçün olmaqla 31 müraciət isə digər məsələlərlə bağlı olub.

**3549 müraciətdən:**

2378 müraciət Agentlik tərəfindən araşdırılıb və cavablandırılıb (42 müraciət müvafiq qaydada baxılması və tədbir görülməsi üçün aidiyyəti quruma göndərilib);

7 müraciət Energetika Nazirliyi ilə müştərək icra olunub;

700 müraciət hazırda baxılma prosesindədir;

464 məlumat xarakterli müraciətdən 238-i qaldırılan problemlərin həlli ilə bağlı təşəkkür məktubu olub.

## ELEKTRİK VƏ İSTİLİK ENERJİSİ, QAZ TƏCHİZATI

Yeni, yenidən qurulan, istifadə olunmasına icazə verilmiş gücü artırılan və enerjitəchizat sxemini dəyişən 46 tikinti obyektinin xarici elektrik enerjisi təchizatı üçün quraşdırılmış elektrik qurğularına istismara buraxılış aktı verilib;

94 razılaşdırılmış layihəyə əsasən tikintisi başa çatdırılmış sənaye qaz qurğularının istismarına icazə verilib;

“Azərenerji” ASC və “Azərişıq” ASC-nin nümayəndələrinin iştirakı ilə 18 hesablaşma elektrik sayğacının texniki vəziyyətinə baxış keçirilib.

## İNZİBATİ XƏTA HAQQINDA İŞLƏRƏ BAXILMA

Agentliyin səlahiyyətlərinə aid olan Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin

müvafiq maddələri üzrə 79 inzibati xəta haqqında işə baxılıb, onlardan 77 iş üzrə inzibati tənbeh vermə haqqında qərar, 2 iş üzrə isə icraata xitam verilməsi barədə qərar qəbul olunub.

## BÜDCƏDƏN MALİYYƏLƏŞƏN MÜƏSSİSƏLƏRDƏ KEÇİRİLƏN NƏZARƏT TƏDBİRLƏRİ

Elektrik qurğularının texniki istismarı, təhlükəsizlik texnikası qaydalarına əməl olunması və elektrik enerjisindən istifadənin vəziyyətinin araşdırılması məqsədilə 250 nəzarət tədbiri keçirilib;

Qazdan səmərəli istifadənin, “Qazdan istifadə Qaydaları”nın və qaz qurğularının etibarlı istismarının, həmçinin digər normativ hüquqi aktların tələblərinə əməl olunmasının vəziyyətinin araşdırılması məqsədilə 206 nəzarət tədbiri keçirilib.

## PEŞƏ BİLİKLƏRİNİN YOXLANILMASI

Agentlik tərəfindən hesabat dövrü ərzində 94 müəssisədə 244 nəfər olmaqla elektrotexniki heyətin və elektrik təsərrüfatlarına cavabdeh şəxslərin texniki istismar, təhlükəsizlik texnikası qaydaları üzrə peşə bilikləri yoxlanılıb, yoxlama nəticəsində biliklərin artırılması üzrə təkliflər verilib, bu istiqamətdə müvafiq şəxslərə metodiki yardım göstərilib.